# Şəhidlər

Bayrağın bir rəngi min şəhid qanı,
Bu Vətən uğrunda yaxdılar canı,
Yaratdı müstəqil Azərbaycanı,
Azadlıq yolunda mayak şəhidlər.

Əzizim günahsızlar,
Can verdi günahsızlar,
Bu dəhşətə, bu aha,
Minlərlə günah sızlar.

Dünyanı lərzəyə gətirdi bu səs,
Ruhumuz önündə baş əyir hər kəs,
Vətən müqəddəsdir, torpaq müqəddəs,
Vətən keşiyində oyaq şəhidlər.

Əzizinəm bu dağa,
Bu acıya, bu dağa,
Dağ çəkildi bu xalqa,
Yer dözəmməz bu dağa.

Ölüb, qovuşdular ölümsüzlüyə,
Şəhidlik adında uca zirvəyə,
Can verdilər, Vətən yaşasın deyə,
Millətin ruhuna dayaq şəhidlər.

Rəhman Bayram